## 2023 – "Heydər Əliyev İli"

# "O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqdır"



**BU gün respublikamızın elçilərinin böyük bir dəstəsini ölkənin Moskva, Leninqrad və başqa şəhərlərinin ali məktəblərinə göndərərkən, bu tribunadan çıxış edən tələbələri dinləyərkən bir daha yəqin edirsən ki, bizdə həqiqətən istedadlı gənclər yetişir...**
**...Biz inanırıq ki, hər biriniz öz yüksək şəxsi məsuliyyətinizi dərk edərək respublikaya yaxşı hazırlıqlı mütəxəssis kimi qayıdacaqsınız.**

**Əziz dostlar, bax, beləliklə, o illər biz böyük iş başlamışıq və indi də onun gözəl nəticələrini görürük. Doğrusu, mən bu gün sizin hamınızı burada öz doğma övladlarım kimi görürəm. Mən bir dəfə bunu demişəm, o illər sizlərin – hər il respublikadankənar ali məktəblərə qəbul olunanların siyahısından bir neçə nüsxəlik böyük bir kitab düzəldirdilər. Həmin kitablardan birini də gətirib mənə verirdilər. Mən o kitabları o vaxtdan indiyədək öz şəxsi kitabxanamda, arxivimdə saxlayıram.**

**O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər.**

*Ümummilli Lider Heydər Əliyevin Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşündəki və 1970-1987-ci illərdə Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısındakı nitqindən (28 avqust 1975, 31 avqust 1998-ci illər)*